# Oxşar talelər

## Babalar XX əsrdə alman, nəvələr XXI əsrdə erməni faşizminə qalib gəlmişlər

Müharibə qan-qadadır, ölüm-itimdir. Müharibə yaddaşların daş ömrü, isti arzuların soyuq məzarıdır. Bəşər yaranandan müharibə bu "atribut"ları özündə daşıyan fəlakət olaraq insanlığın törətdiyi qorxu və dəhşətdir.



İbtidai icma dövründə silahı daş-kəsək olan müharibə əsrlərlə yol gələrək "inkişaf" edib. Bu gün o, atom, hidrogen bombaları ilə silahlanıb, ən müasir hərbi texnika ilə yüklənib, üstəlik dayanmaq da bilmir. Və nə sirdirsə, qarşısını almaq da mümkün deyil. Savaşlar getgedə daha qəddar olur.

Amma bu qəddarlığın fonunda müharibə zamanı bir məqam da olur. Bu, döyüşçü məktublarıdır. Cəbhədən göndərilən bu xoşxəbərli məktublar ünvanına çatanda onu alan adamın həsrətinə son qoyur, içinə axan göz yaşlarını saxlayır. Doğrudur, müasir müharibələrdə qələm-kağızla yazılmış məktublara ehtiyac olmur. Bunun üçün müharibənin qaydaları çərçivəsində başqa yollar var. Necə deyərlər, dəyişən məktublaşmanın formasıdır, məzmunu yox.

1941-1945-ci illərdə faşist Almaniyası ilə müharibə aparan sovet döyüşçülərinin yazdığı məktublar indi muzeylərdə sərgilənir. Qəribədir ki, o dövrdə cəbhə məktubları üçkünc olurdu. Heç bir yapışqandan istifadə edilmirdi. Səbəb həmin vaxtlar kağızdan dolayı qıtlıq çəkilməsi deyildi. Məktubların zərfsiz göndərilməsində məqsəd o idi ki, xüsusi poçt işçiləri onu açıb oxuya bilsinlər. Müharibədir, əsgər lazım olmayanları da yaza bilər. Bəli, o vaxt poçt şöbələrində hərbi senzura fəaliyyət göstərirdi. Məktublar ünvanlarına göndərilməmişdən əvvəl hərbi senzura oxuyub, üstünə "Hərbi senzura tərəfindən baxılıb" sözləri yazılmış möhür vururdu. Bunlardan əlavə, üçkünc məktublarda göndərənin ünvanı da olmurdu. Hamısının üstündə ünvan yerinə "səhra poçtu" yazılırdı.

1941-1945-ci illərdə yazılan bu cür üçkünc məktubların sayı 7 milyarddan çox ollmuşdu. Həmin illər istər cəbhədəki səhra poçtlarında, istərsə də yerli poçtlarda çalışanlar böyük qəhrəmanlıq göstərirdilər. Nə olur-olsun - boran, tufan qopsun, qar yağsın, sel düşsün - məktublar ünvanlarına vaxtında çatdırılmalı idi. Gözü yolda qalanların, qulağı səsdə olanların həsrətinə son qoyacaq bu məktublar qızıldan qiymətli idi. Hər məktub bir ümid idi. O dövrün poçtalyonları ailələrə sevinc paylayan, ümid bəxş edən ən arzuolunan insanlar idi. Süleyman Rüstəm "Ana və poçtalyon" şeirində bu həsrəti, bu narahatlığı poetik dillə çox dəqiq təsvir edib.

Lakin poçtalyonlar hər zaman sevinc bəxş etmirdilər. Onlar bəzən çantalarında günlərlə məktub gəzdirərdilər, "qara kağızlar"ı ünvana çatdırmağa ürək etmirdilər. Dünən xoş xəbərlər carçısı olan poçtalyon bu gün qara xəbər daşıyıcısına çevrilmək istəmirdi. "Tütək səsi" filmindəki Səidə həmin əzablarla yaşayan poçtalyon obrazıdır.

Maraqlıdır ki, həmin üçkünc "qara kağızlar" birbaşa hərbi komissarlıqlara ünvanlanırdı. Komissarlıqlar isə onun əslini saxlayıb ailələrə surətini göndərirdi. Həmin "qara kağızlar" da həlak olan əsgərin əzizlərinin, doğmalarının ömürlük "yol yoldaşına" çevrilirdi.

İkinci Dünya müharibəsi ilə Azərbaycanın Vətən müharibəsini 80 ildən çox bir zaman ayırır. Amma onları ayıran təkcə zaman deyil. Beş il davam edən 1941-1945-ci illər müharibəsi ilə müqayisədə 44 gün davam edən Vətən müharibəsi bizim üçün daha müqəddəsdir. Çünki biz müstəqil Azərbaycan olaraq son ikiəsrlik tariximizdə itirilən ərazilərimizi qaytarmışıq. Və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həmin əraziləri İkinci Dünya müharibəsində faşizmə qarşı qəhrəmanlıqla döyüşmüş Azərbaycan əsgər və zabitlərinin nəvənəticələri azad etmişlər. O nəvə-nəticələr kimi onların da taleyinə faşizmə, lakin bu dəfə erməni faşizminə qarşı mübarizə aparmaq düşmüş və onlar da babaları kimi həmin mübarizədən qalib çıxmışlar.

O ki qaldı başlanan müharibənin ilk günlərindən Qarabağda döyüşən əsgərlərimiz üçün "Əsgərə məktub!" layihəsinə, bu layihə çərçivəsində yazılan məktublar əsgərlərimizə əlavə güc-qüvvət verir, Vətən sevgisini alovlandırırdı.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 9 may.- S.22.